# Təmasların genişləndirilməsi qarşılıqlı əməkdaşlığa töhfə verəcək

Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasına rəsmi səfəri çərçivəsində Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Sahibə Qafarova Milli Məclisin Sədri kimi Çex Respublikasına ilk dəfə səfər etdiyini, bu səfərin və keçirilən görüşlərin münasibətlərin daha da genişlənməsinə müsbət təsir edəcəyinə inandığını bildirib. Spiker Sahibə Qafarova parlamentlərimiz arasında münasibətlərin Azərbaycan və Çex Respublikası arasında əlaqələrin mühüm bir hissəsini təşkil etdiyini qeyd edərək qarşılıqlı səfərlərin və müntəzəm dialoqun önəminə diqqət çəkib. O vurğulayıb ki, dostluq qrupları arasında təmasların daha da genişləndirilməsi qarşılıqlı əməkdaşlığa töhfə verəcək.

Milli Məclisin Sədri həmçinin regionda mövcud olan vəziyyət, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüslər barədə məlumat verib. Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan



parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yan Kubik Azərbaycana, o cümlədən işğaldan azad olunmuş Ağdam rayonuna səfərləri, keçirdiyi görüşlərlə bağlı xoş təəssüratlarını bölüşüb. O, ölkələrimiz haqqında həqiqətlərin, məlumatların ictimaiyyətə doğru çatdırılmasının, parlamentlərimiz arasında əlaqələrin genişləndirilməsinin, qarşılıqlı səfərlərin önəmini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 3 dekabr, (№ 264).- S.2.